Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və ümumi təhsil üzrə dövlət agentliyi

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 9

# TARİX

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- Hər sual 4 bal ilə qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1. Hadisə-nəticə əlaqəsini müəyyən edin:**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Bakı Xalq Komissarları Sovetinin yaradılması | Milliləşdirmə tədbirlərinin həyata keçirilməsi |
| B) | Sentrokaspi Diktaturasının məğlub edilməsi | AXC-də ikinci hökumət kabinetinin qurulması |
| C) | ADP-nin yaradılması | Cənubi Azərbaycanda silahlı üsyanın başlanması |
| D) | Rusiyada Müvəqqəti hökumətin devrilməsi | Azərbaycanda müstəqil dövlətçiliyin bərpa olunması |
| E) | Brest-Litovsk müqaviləsinin imzalanması | Osmanlı qoşunlarının Azərbaycanı tərk etməsi |

**2. XIX əsrin II yarısında Azərbaycan millətinin formalaşmasının ilkin şərtlərindən *deyil:***

A) iqtisadi və mədəni mərkəzlərin yüksəlişi

B) kapitalizmin inkişafı

C) müstəqil dövlətin meydana gəlməsi

D) vahid bazarın yaranması

E) burjuaziya və fəhlə təbəqəsinin formalaşması

**3. Şah I Abbasın İraq ərazisini Səfəvi dövlətinə tabe etməsinə təsir göstərdi:**

A) Osmanlı dövlətinin Cəlali üsyanları nəticəsində zəifləməsi

B) Bağdad hakiminin üsyançılara qarşı I Abbasdan kömək istəməsi

C) Sınıq körpü döyüşündə Osmanlılar üzərində qələbə qazanması

D) İngiltərə ilə əməkdaşlıq müqaviləsinin imzalanması

E) Osmanlı imperiyasında baş verən daxili çəkişmələr

**4. Şamaxı və Cavad xanlıqlarının XVIII əsrin 60-cı illər tarixinə aiddir:**

A) Rusiyanın hakimiyyətinin qəbul edilməsi

B) Ərazisində ikihakimiyyətliliyin mövcud olması

C) Urmiya xanlığına qarşı qurulmuş ittifaqda iştirak etmələri

D) Quba xanlığı tərəfindən tabe edilmələri

E) Şəki xanlığı ilə müqavilə imzalanması

**5. Osmanlı dövləti ilə Bayandurlular arasında münasibətlərin pozulmasının səbəblərindəndir:**

A) II Mehmetin Trabzonu tabe etmək istəməsi

B) Həsən padşahın Teymuri Əbu Səidi məğlub etməsi

C) Ərdəbil hakimliyi ilə Bayandurluların Osmanlıya qarşı birləşməsi

D) Həsən padşahın Avropadan odlu silah alması

E) II Mehmetin öz nüfuzunu Gürcüstana yaymaq istəməsi

**6. Uyğunluğu müəyyən edin:**

1) Ahşeri

2) Qaumata

3) Kozis

a) Qanıx çayı sahilindəki döyüşdə albanlara rəhbərlik etmişdir

b) Assur dövləti ilə olan ittifaqı pozmuşdu

c) Əhəməni-fars zülmünə qarşı üsyan qaldırmışdı

A) 1-c, 2-b, 3-a

B) 1-c, 2-a, 3-b

C) 1-a, 2-b, 3-c

D) 1-b, 2-c, 3-a

E) 1-b, 2-a, 3-c

**7. E.ə. III əsrin II yarısında baş vermişdir:**

1. Parfiya dövlətinin meydana gəlməsi

2. Yunan şəhər-dövlətlərinin Makedoniya hakimiyyətinə düşməsi

3. Aşokanın Hindistanı vahid dövlətdə birləşdirməsi

4. Mark Trayanın işğalçı yürüşlər həyata keçirməsi

A) 1, 2

B) 2, 4

C) 3, 4

D) 1, 3

E) 2, 3

**8. Frank krallığı ilə avarlar arasında müharibəyə səbəb oldu:**

A) Slavyanların avarlar tərəfindən tabe edilməsi

B) Avarların Konstantinopolu mühasirəyə alması

C) Böyük Karlın Kordova əmirliyinə hücumu

D) Roma papasının avarlara qarşı Frank dövlətindən kömək istəməsi

E) Avar xaqanlığının İtaliyanın şimalını tutması

**9. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. İtaliya krallığının yaradılması

2. Dekabristlər üsyanının baş verməsi

3. Britaniyada ikinci parlament islahatının keçirilməsi

4. Portsmut müqaviləsinin imzalanması

A) 2, 4, 1, 3

B) 4, 3, 1, 2

C) 2, 1, 3, 4

D) 3, 4, 1, 2

E) 1, 2, 3, 4

**10. II Mahmudun hakimiyyəti dövründə baş *verməmişdir:***

A) Yunanıstana müstəqillik verilməsi

B) Yeniçərilərin hakimiyyətə qarşı qiyam qaldırması

C) Bessarabiyanın Rusiya tərəfindən ələ keçirilməsi

D) Avropa nümunəsində nazirliklərin yaradılması

E) Osmanlı dövlətinin konstitusiyalı monarxiyaya çevrilməsi

**11. Kərim xan Zəndin fəaliyyətinə aiddir:**

A) Karnal döyüşündə moğollar üzərində qələbə qazanması

B) Anadolunun şərq vilayətlərini ələ keçirməsi

C) Yeni dövlətin əsasını qoyması

D) Dövləti Səfəvi şahzadəsinin adından idarə etməsi

E) Şimali Qafqazda rus qoşunlarının məğlub edilməsi

**12. Böyük Moğol dövlətində soyurqal:**

A) Hind knyazlarının şəxsi torpaqları idi

B) Hərbi xidmət müqabilində verilir və irsən keçirdi

C) Sufi şeyxləri və müsəlman ruhanilərinə məxsus idi

D) Dövlət torpaq fonduna daxil idi

E) Xidmət müqabilində verilir və şərti xarakter daşıyırdı

**13. Mətni oxuyun və kimin haqqında olduğunu müəyyən edin:**

**"*… son dərəcə cəsur və qorxmaz insan idi. O, dövlətin idarəsini tamamilə öz əlinə almağa başladı. … şiə-sünni məzhəbləri arasındakı ixtilafa son qoymaq istəyirdi, lakin onun sui-qəsd nəticəsində öldürülməsi bu tədbirləri yarımçıq qoydu*"**

A) Nadir xan

B) I Təhmasib

C) Məhəmməd Xudabəndə

D) Həmzə Mirzə

E) II İsmayıl

**14. Teymuri hökmdarı Əbu Səidin fəaliyyətinə aiddir:**

a. Cahanşahla barışıq müqaviləsi imzalanması

b. Həsən padşahla müharibə aparması

c. Qızıl Ordu dövlətinə yürüş etməsi

d. Naxçıvan və Xorasanda üsyanları yatırması

A) b, c

B) a, b

C) c, d

D) a, c

E) b, d

**15. Xəritə-sxemdə XIV əsrin 60-cı illərində İngiltərə ilə sülh müqaviləsi imzalamış dövlətin ərazisini müəyyən edin:**




A) 3

B) 2

C) 1

D) 5

E) 4

**16. Səfəvi hökmdarlarına dair ardıcıllığı tamamlayın:**

**I Səfi - ? - ? - Sultan Hüseyn**

A) II Abbas, Süleyman

B) I Abbas, II Abbas

C) II İsmayıl, Məhəmməd Xudabəndə

D) Süleyman, II Abbas

E) Süleyman, II Təhmasib

**17. Urnayrdan fərqli olaraq II Vaçe:**

A) Sasani mərzbanı olmuşdu

B) IV əsrdə hakimiyyətdə olmuşdu

C) Sasani hökmdarının şərəfinə şəhər saldırmışdı

D) Xristianlığı ilk dəfə dövlət dini elan etmişdi

E) Sasanilərlə birlikdə Romaya qarşı mübarizə aparmışdı

**18. "*Midiyalılar onlara yaxınlıqda olan xalqlar üzərində, bu xalqlar öz qonşuları üzərində, qonşular isə onlara həmsərhəd olan xalqlar üzərində ağalıq edirdi*". Heredota istinadən verilmiş bu mənbə nəyi sübut edir:**

A) Midiya dövlətinin siyasi, iqtisadi əsasının möhkəm olmamasını

B) Azərbaycanın şimal torpaqlarının Midiyaya tabe olmasını

C) Azərbaycanın cənub torpaqlarının Əhəmənilərə tabe olmamasını

D) Midiyada hakimiyyət bölgüsünün mövcudluğunu

E) Midiyanın qonşu xalqlarla mədəni əlaqələrinin mövcudluğunu

**19. Qədim şumerlər və hindlilər üçün ümumi cəhət:**

A) Zikkurat inşa etmələri

B) Müasir oyunların ilk nümunələrini yaratmaları

C) İnsanları kastalara bölmələri

D) E.ə. I minillikdə ərazilərində ilk dövlətlər yaratmaları

E) E.ə. II minillikdə ari tayfalarının hücumuna məruz qalmaları

**20. 1836-cı ildə daxili gömrük rüsumunun ləğv edilməsinin əhəmiyyəti:**

A) Ticarətin inkişafına müsbət təsir göstərdi

B) Vahid pul, ölçü və çəki sistemi yaradıldı

C) Ümumrusiya bazarını formalaşdırdı

D) Avropa mallarının Cənubi Qafqaza axını sürətləndi

E) Güzəştli ticarət tarifi ləğv edildi

**21. 1866-cı il məhkəmə islahatının məhdud cəhətlərindəndir:**

A) Məhkəmə hakimiyyətinin icra orqanlarından ayrılması

B) Məhkəmənin açıq keçirilməsi

C) Hakimlərin müstəqilliyi

D) İttihamçı və müttəhimin çəkişməsi

E) Hakimlərin təyin edilməsi

**22. Tomas Ceffersonun prezidentliyi dövrü üçün səciyyəvidir:**

A) Luiziananın Fransadan satın alınması

B) Böyük Britaniya ilə yeni müharibənin başlanması

C) ABŞ Konstitusiyasının qəbul edilməsi

D) Böyük Britaniya ilə müqavilənin imzalanması

E) "İstiqlaliyyət bəyannaməsi"nin əsas müəllifi olması

**23. Almaniyada 1848-1849-cu illər inqilabının əsas məqsədlərindəndir:**

A) Gömrük rüsumlarının ləğv edilməsi

B) Vahid dövlətin yaradılması

C) Elzas və Lotaringiyanın zəbt edilməsi

D) Şimali Alman ittifaqının yaradılması

E) Fransa əleyhinə ittifaqın yaradılması

**24. Erməni işğalından xronoloji olaraq daha əvvəl azad olunmuş rayon mərkəzidir:**

A) Ağdam

B) Qubadlı

C) Zəngilan

D) Laçın

E) Kəlbəcər

**25. Quba hakimi Şeyxəli xanla rus qoşunlarının Gilgilçay üzərindəki döyüşünün nəticəsi:**

A) Şeyxəli xan əsir düşdü

B) Şeyxəli xanın qoşunu məğlub edildi

C) Rus qoşunları məğlub edildi

D) Quba əyaləti Rusiya tabeçiliyindən çıxdı

E) Ruslar tərəfindən ələ keçirilən bəylər sürgün edildi